# AZƏRBAYCAN RESPUBLİKASINDA KİTABXANA İŞİNİN KONSTİTUSİON-HÜQUQİ BAZASI

***Daşqın Heydər oğlu Məhəmmədli***

*Tarix üzrə fəlsəfə doktoru*
*BDU İnformasiya və sənəd menecmenti fakültəsinin dekan müavini,*
*Kitabxana-informasiya resurslarının idarə edilməsi*
*kafedrasının müəllimi*
*dashqin.muhammedli@mail.ru*
*https://orcid.org/0000-0002-6875-8091*

***Açar sözlər:*** *kitabxana işi, hüquqi sənədlər, kitabxana işi sahəsinin hüquqi bazası, kitabxana işi sahəsində dövlət siyasəti, kitabxana, sənəd, bibloqrafiya*

***Ключевые слова:*** *библиотечное дело, правовые документы, правовая база в области библиотечного дела, государственная политика в области библиотечного дела, библиотека, документ, библиография*

***Keywords:*** *Library science, legal documents, legal framework of the library field, state policy in the field of library science, library, document, bibliography*

**Xülasə:** Məqalədə Azərbaycan Respublikasının müstəqilliyi şəraitində kitabxana işi sahəsinin konstitusion-hüquqi bazasını təşkil edən sənədlər xronojoji ardıcıllıqla sistemləşdirilir. Bu sənədlər müasir informasiyalaşdırılmış cəmiyyət quruculuğu prosesinin əsas atributu kimi çıxış edən kitabxanaların növündən və tipindən asılı olmayaraq optimal fəaliyyətinin təşkilinin başlıca hüquqi-elmi bazasını təşkil edir. Kitabxana-biblioqrafiya və informasiya sahəsinin kompleks inkişafının dövlətin müəyyənləşdirdiyi strateji istiqamətlərdən olması sahə üzrə mütərəqqi prinsip və müddəalarla zəngin olan hüquqi bazanın yaradılmasını şərtləndirmişdir ki, Azərbaycan Respublikasında kitabxana işi sahəsinin hüquqi bazasını təşkil edən sənədlərin elmi sistemləşdirilməsi də bu aspektdə ciddi aktuallığı ilə səciyyələnir.

**Резюме:** В статье в хронологическом порядке систематизируются документы, составляющие конституционно-правовую базу библиотечного дела в условиях независимости Азербайджанской Республики. Эти документы являются основной правовой и научной основой для обеспечения оптимального функционирования библиотек, независимо от их вида и типа, как важнейшего атрибута процесса построения современного информационного общества. Признание комплексного развития библиотечно-библиографической и информационной сферы в качестве одного из стратегических направлений, определённых государством, предопределило создание правовой базы, насыщенной прогрессивными принципами и положениями. В этом контексте научная систематизация документов, составляющих правовую базу библиотечного дела в Азербайджанской Республике, приобретает особую актуальность.

**Summary:** The article systematizes, in chronological order, the documents that form the constitutional and legal basis of the library field in the Republic of Azerbaijan under conditions of independence. These documents constitute the primary legal and scientific foundation for ensuring the optimal functioning of libraries, regardless of their type or category, as essential attributes of the modern information society-building process. The recognition of the complex development of the library, bibliography, and information field as one of the strategic directions determined by the state has necessitated the creation of a legal framework enriched with progressive principles and provisions. In this context, the scientific systematization of the documents that form the legal basis of the library field in the Republic of Azerbaijan is of particular relevance.

**Giriş:** Azərbaycan Respublikasında kitabxana işi sahəsinin hərtərəfli inkişafı dövlətin bu sahəydə optimal siyasəti fonunda baş vermişdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir və kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" [2, s.2] -kəlamı üzərində bərqərar olan milli dövlət kitabxana siyasəti möhkəm konstitusion-hüquqi təməllər üzərində inkişaf etməklə, ölkədə informasiyalaşdırılmış cəmiyyət quruculuğu prosesinin əsas atributuna çevrilmişdir. Kitabxana işinin demokratikləşdirilməsi, sənəd kommunikasiyaları sisteminin əsas tərkib hissələrindən biri kimi müasir tələblər səviyyəsində səmərəli xidmət üsul və vasitələri əsasında fəaliyyətinin təşkili, kitabxana və cəmiyyət münasibətlərinin humanist prinsiplər əsasında qurulması və s. sahəyə dair mövcud hüquqi bazanı təşkil edən sənədlərdə ehtiva olunan əsas müddəalardır.

**Əsas hissə.** Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasəti qəbul olunmuş mütərəqqi dövlət sənədləri əsasında həyata keçirilir. 1995-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının Konstitusiyası"ı [1] (40-cı və 50-ci maddələr) bu sahənin ümumi hüquqi əsasının müəyyənləşdirir. Ölkədə kitabxana işinin konstitusion-hüquqi bazasına əsasən aşağıdakı sənədlər daxildir:

1. Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il 12 noyabr);
2. "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (1996-cı il)
3. "Mədəniyyət haqqında"Azərbaycan Respublikasının Qanunu (1998-ci il 6 fevral);
4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1998-ci il 3 aprel);
5. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu (1998-cil 28 dekabr);
6. "Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydaları" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 29 №-li qərarı ilə təsdiq edilmişdir);
7. Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir);
8. "Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi Əsasnaməsi" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir);
9. "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu (2000-ci il 30 may);
10. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2004-cü il 12 yanvar);
11. "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2004-cü il 12 yanvar)
12. "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ( 2004-cü il 27 dekabr);
13. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2007-ci il 20 aprel);
14. "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2007-ci il 30 dekabr);
15. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemindəki şəhər (rayon) Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında Əsasnamə" (Azərbaycan Respublikası mədəniyyət nazirinin 2008-ci il 18 iyun tarixli əmri ilə təsdiq edilmişdir);
16. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" (Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir);

17.“Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir);

18.“Azərbaycan Milli Kitabxanasının Elmi şurası haqqında Əsasnamə” (Azərbaycan Respublikası mədəniyyət nazirinin 2014-cü il 9 aprel tarixli 183 №-li əmri ilə təsdiq edilmişdir);

19.“Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı” (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir);

20.“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi sistemindəki Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında Nümunəvi Əsasnamə” (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Kollegiyasının 2018-ci il 8 noyabr tarixli, 6/1 nömrəli qərarı ilə təsdiq edilmişdir);

21.“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Priorotetlər” (Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir);

22.Respublikanın əlaqədar idarəetmə strukturlarının müafiq sənədləri;

23.Respublikanın baş metodik kitabxana mərkəzlərinin müvafiq direktiv sənədləri;

24.Respublika kitabxanalarının müvafiq direktiv sənədləri və s.[2; 3; 4; 5; 6].

**Nəticə:** Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin inkişfında dövlət siyasətinin əsas istiqamətləri sahənin modernləşdirilməsi, bu istiqamətdə ortaya qoyulan xidmətin qabaqcıl dünya təcrübəsinin mütərəqqi prinsiplərinə uyğunlaşdırılması, müvafiq sahə üzrə kadr potensialının elmi-nəzəri, metodik və təcrübi səviyyəsinin yüksəldilməsi, həm mərkəzdə, həm də region kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxanaların ictimaiyyətlə əlaqələrinin dərinləşdirilməsi istiqamətində stimullaşdırıcı tədbirlərin çoxaldılması, informasiya tələbatçılarının kitabxanaların məlumat bazalarına optimal əlçatarlığının təmin edilməsi və s. təşkil edir.

Göstərilən zəngin hüquqi baza əsasında Azərbaycan kitabxanaları fəaliyyət göstərərək, ölkədə müasir informasiyalaşdırılmış cəmiyyət quruculuğu prosesində, elmi informasiya təminatında, cəmiyyətin ümumi mənəvi və intellektual potensialının inkişafında xüsusi rol oynayır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan dəyişiklik və əlavələr): [Elektron resurs] / Bakı, 26 sentyabr 2016. URL: https//president.az/az/pages/view/azerbaijan/constitusion

2. *Xələfov, A.A.* Heydər Əliyev və Azərbaycanda kitabxana işi.Monoqrafiya / A.A.Xələfov.- Bakı: Azərnəşr, -2006.- 312 s.

3. https://president.az/

4. https://nk.gov.az/

5. https://nk.gov.az/

6. https://www.millikitabxana.az/

7. Kitabxana işinə dair rəsmi sənədlər: (Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu) / ərt. K.Tahirov; red. A.Abdullayeva.- 3-cü təkmilləşdirilmiş nəşri.- Bakı, 2015.- 200 s.